## BƏXTİYAR VAHABZADƏNİN HƏYAT VƏ YARADICILIĞININ ƏSAS TARİXLƏRİ

***Azərbaycanın Xalq şairi, dramaturq və ədəbiyyatşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, SSRİ və Azərbaycan SSR dövlət mükafatları laureatı Bəxtiyar Vahabzadə 16 avqust 1925-ci ildə Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur*.**

| | |
|---|---|
| **1934** | Ailəsi ilə bərabər Bakıya köçmüş, Bakıda 136 saylı orta məktəbə daxil olmuşdur. |
| **1935** | LKGİ sıralarına qəbul olmuşdur. |
| **1942** | Orta məktəbi bitirib, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinə daxil olmuşdur. |
| **1943** | "Ana və şəkil" adlı ilk şerini çap etdirmişdir. |
| **1944-1945** | "Ədəbiyyat" qəzetində şöbə müdiri vəzifəsində işləmişdir |
| **1945** | Yazıçılar İttifaqının üzvlüyünə qəbul olunmuşdur. |
| **1945-1946** | Azərbaycan LKGİ MK-nin nəzdində "Azərbaycan gəncləri" qəzetində şöbə müdiri vəzifəsində işləmişdir. |
| **1949** | Azərbaycan LKGİ MK-nin nəzdində Uşaqgəncnəşrdə Müasir ədəbiyyat şöbəsində redaktor vəzifəsində çalışmışdır.<br><br>"Mənim dostlarım" adlı ilk kitabı çap olunmuşdur. |
| **1950** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim vəzifəsində işləmişdir. |
| **1951** | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti Azərbaycan ədəbiyyatı tarixi kafedrasında baş müəllim vəzifəsinə keçmiş və "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik irəli sürmüşdür. |

| | |
|---|---|
| **1951** | Sov.İKP üzvlüyünə qəbul olunmuşdur |
| **1953** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında dosent vəzifəsinə keçmişdir. |
| **1954** | SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. |
| **1958** | İki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini əks etdirən "Gülüstan" poemasını yazmışdır. |
| **1959** | SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə "Əməkdə fərqlənmə medalı" ilə təltif olunmuşdur.<br><br>İran, İraq (Kərbəla şəhəri), Livan və Misir ölkələrində turist səfərində olmuşdur. |
| **1961** | Afrika boyu ölkələrdə turist səfərində olmuşdur. |
| **1962** | "Gülüstan" poemasını yazdığına görə şair "millətçi" damğası ilə Azərbaycan Dövlət Universitetindən çıxarılmışdır. |
| **1964** | "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq işini müdafiə edib, filoloji elmlər doktoru alimlik dərəcəsini almışdır |
| **1966** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasında professor vəzifəsinə seçilmişdir. |
| **1967** | Bakı şəhəri Zəhmətkeş Deputatları Sovetinin XI çağırış 320 №-li dairəsindən deputat seçilmişdir. |
| **1970** | S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasına müdir vəzifəsinə seçilmişdir |
| **1974** | Portuqaliyada nümayəndə heyətinin üzvü kimi, Türkiyədə isə qonaq kimi olmuşdur. |

| | |
|---|---|
| **1974** | Azərbaycan sovet ədəbiyyatı və teatr sahəsində xidmətlərinə görə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə “Azərbaycan SSR Əməkdar İncəsənət xadimi” fəxri adına layiq görülmüşdür. |
| **1975** | "Respublika Mükafatı laureatı" adına layiq görülmüşdür.<br><br>"Qırmızı Əmək Bayrağı ordeni" ilə təltif olunub. |
| **1976** | "Leninlə söhbət", "Muğam" poemalarına görə "Azərbaycan Dövlət mükafatı"na layiq görülmüşdür. |
| **1977** | Türkiyədə nümayəndə heyətinin üzvü kimi olmuşdur. |
| **1978** | İngiltərədə nümayəndə heyətinin üzvü kimi qonaq olmuşdur. |
| **1980** | Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir.<br><br>X çağırış Azərbaycan SSR Ali Sovetinə Qobustan seçki dairəsi üzrə deputat seçilmişdir. |
| **1981** | SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir. |
| **1984** | "SSRİ Dövlət Mükafatı Laureatı"ilə təltif edilmişdir.<br><br>Azərbaycan SSR-in "Xalq şairi" adı verilmişdir.<br><br>“Bir gəminin yolçusuyuq” əsərinə görə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. |
| **1984** | “Oktyabr İnqilabı” ordeni ilə təltif olunmuşdur. |
| **1987** | "Azərbaycantelefilm" də Bəxtiyar Vahabzadənin anadan olmasının 60 illiyinə həsr olunmuş“Bəxtiyar Vahabzadə” adlı |

| | |
|---|---|
| | qısametrajlı sənədli televiziya filmi istehsal olunmuşdur. |
| **1990** | Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmişdir. |
| **1991** | Azərbaycan Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü seçilmişdir. |
| **1995** | Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilmişdir.<br><br>Ankara Dövlət Universitetinin fəxri doktoru seçilmişdir. |
| **1995-2000** | Azərbaycan Respublikası Milli Məçlisinə deputat seçilmişdir. |
| **1999** | Türk Kültürünə Hizmət Vəqfi tərəfindən təsis olunmuş Türk Dünyası – Türk Dili Şərəf Ödülünə layiq görülmüşdür. |
| **2000-2005** | Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. |
| **2000** | Azərbaycan MEA nın həqiqi üzvü seçilmişdir. |
| **2001** | Rumıniyanın mədəniyyət sahəsində ən ali mükafatı olan Komandor dərəcəli “Ləyaqət” milli ordeni ilə təltif edilmişdir. |
| **2002** | Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə təltif olunmuşdur. |
| **2003** | "Azərbaycantelefilm"də “Bəxtiyar Vahabzadə” adlı tammetrajlı sənədli televiziya filmi istehsal olunmuşdur. |
| **2009, 13 fevral** | 83 yaşında Bakı şəhərində vəfat etmişdir. Birinci Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **2009, 7 dekabr** | "Bəxtiyar Vahabzadə adına" təqaüdün təsis edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabineti 188 saylı Qərarı qəbul etmişdir |

| | |
|---|---|
| **2009** | "Şəki şəhərindəki 1 nömrəli orta məktəbə xalq şairi Bəxtiyar Vahabzadənin adının verilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı qəbul edilmişdir. |
| **2015,14 yanvar** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Xalq şairi Bəxtiyar Vahabzadənin 90 illik yubileyinin keçirilməsi haqqında "Sərəncam imzalamışdır.<br><br>“Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır. |
| **2015** | TÜRKSOY tərəfindən "Türk dillərində Bəxtiyar Vahabzadənin 90 şeiri" adlı kitabı nəşr olunmuşdur. |
| **2018, 31 avqust** | Şəkidə şairin ev- muzeyinin açılışı olmuşdur. |
| **2025, 21 fevral** | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam imzalamışdır. |